AzerGold

# QIZIL MƏHSULLARININ GERİALIŞ PROSESİ

www.azergold.gift
retail@azergold.az
Bülbül prospekti 3
+994 12 493 80 83

## Fiziki şəxslər üçün

### Vergi ödəyicisinin eyniləşdirmə nömrəsi (VÖEN) yoxdursa

1. Qızıl məhsullarının gerialış qiymətləri Mərkəzi Bankın gerialış keçirildiyi gün elan etdiyi məzənnəyə uyğun olaraq **www.azergold.gift** veb-saytında təqdim edilir.
2. Azərbaycan Respublikasının Vergi Məcəlləsinin 71.2-ci maddəsinə əsasən vergi orqanında uçotda olmayan şəxslərdən mallar alındıqda “AzerGold” QSC tərəfindən **alış aktı** tərtib edilir.
3. Alış aktının tərtib edilməsi məqsədi ilə Azərbaycan Respublikası vətəndaşı olan şəxslərdən **şəxsiyyət vəsiqəsinin əsli**, Azərbaycan Respublikasının ərazisində yaşayan əcnəbi və ya vətəndaşlığı olmayan şəxslərdən isə Azərbaycan Respublikasının ərazisində müvəqqəti və ya daimi yaşamaq üçün **icazə vəsiqəsinin əsli** tələb edilir.
4. Gerialış məbləği nağd qaydada ödəniş, məbləğ 15 min manatdan artıq olduqda isə qanunvericiliyin tələbi nəzərə alınmaqla şəxsin təqdim etdiyi bank hesabına köçürmə yolu ilə həyata keçirilir.
5. Ödənişin bank hesabına köçürülməsi 10 (on) iş günü ərzində həyata keçirilir.

### Vergi ödəyicisinin eyniləşdirmə nömrəsi (VÖEN) varsa

1. Qızıl məhsullarının gerialış qiymətləri Mərkəzi Bankın gerialış keçirildiyi gün elan etdiyi məzənnəyə uyğun olaraq **www.azergold.gift** veb-saytında təqdim edilir.
2. Gerialış prosesi “Nağdsız hesablaşmalar haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən nağdsız qaydada aparılır.
3. Rəsmiləşdirmə prosesi üçün Azərbaycan Respublikası vətəndaşı olan şəxslərdən **şəxsiyyət vəsiqəsinin əsli** və **bank hesabı məlumatları (rekvizitlər)**, Azərbaycan Respublikasının ərazisində yaşayan əcnəbi və ya vətəndaşlığı olmayan şəxslərdən isə Azərbaycan Respublikasının ərazisində müvəqqəti və ya daimi yaşamaq üçün **icazə vəsiqəsinin əsli** və **bank hesabı məlumatları (rekvizitlər)** tələb edilir.
4. Qanunvericiliyin tələblərinə əsasən VÖEN-i olan şəxslər elektron qaimə-faktura təqdim edir və ödəniş nağdsız qaydada bank hesabına köçürülür.
5. Müştəri tərəfindən elektron qaimə-faktura göndərildikdən sonra gerialış məbləği 10 (on) iş günü ərzində bank hesabına köçürülür.

## Hüquqi şəxslər üçün

1. Qızıl məhsullarının gerialış qiymətləri Mərkəzi Bankın gerialış keçirildiyi gün elan etdiyi məzənnəyə uyğun olaraq **www.azergold.gift** veb-saytında təqdim edilir.
2. Gerialış prosesi “Nağdsız hesablaşmalar haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən nağdsız qaydada aparılır.
3. Rəsmiləşdirmə prosesi üçün hüquqi şəxsin təsis sənədləri (nizamnamə, kommersiya qurumunun dövlət qeydiyyatı haqqında şəhadətnamə (VÖEN), hüquqi şəxsin dövlət reyesterindən çıxarışı və bank hesabı məlumatları (rekvizitlər) tələb edilir. Gerialış prosesi tərəflər arasında müqavilə yolu ilə həyata keçirilir.
4. Qanunvericiliyin tələblərinə əsasən hüquqi şəxslər elektron qaimə-faktura təqdim edir və ödəniş nağdsız qaydada bank hesabına köçürülür.
5. Müştəri tərəfindən elektron qaimə-faktura göndərildikdən sonra gerialış məbləği 10 (on) iş günü ərzində bank hesabına köçürülür.